**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN ŞEİRİNDƏ QOŞMA JANRININ POETİKASI

(M.P.Vaqifin yaradıcılığı əsasında)

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

İddiaçı: **Minarə Naryad qızı Quluyeva**

fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Təhsin Mütəllim oğlu Mütəllimov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Elmira Abdulla qızı Rəhimova** |
| | filologiya elmləri doktoru, professor<br>**Asif Abbas oğlu Hacıyev** |
| | filologiya elmləri doktoru, dosent<br>**Mahirə Həmid qızı Quliyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən ED.2.13 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | filologiya elmləri doktoru, professor<br>**Rəhilə Hüseyn qızı Quliyeva** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | filologiya elmləri doktoru, professor<br>**Nəsirağa Şahmurad oğlu Məmmədov** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmləri doktoru, professor<br>**Nahidə Camal qızı Məmmədxanova** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ədəbi proseslərin öyrənilməsində ədəbiyyatşünas alimlərimizin qarşısında duran aktual problemlərdən biri Azərbaycan ədəbiyyatında qoşma poetikasının formalaşma və inkişaf tarixidir. Qoşma poetikasının tarixi qanunauyğunluqlarının və əsas inkişaf xəttinin müəyyənləşdirilməsi üçün yazılı abidələrin, real həyatı əks etdirən bədii əsərlərin, şifahi xalq ədəbiyyatı materiallarının əsaslı və sistemli şəkildə tədqiqi olduqca aktualdır. Azərbaycan poeziyasının milli poetik baza ilə əlaqələrinin ayrıca bir janrın – qoşmanın timsalında öyrənilməsi elmi baxımdan çox məqsədəuyğun və aktualdır.

Qədim və zəngin ənənəli Azərbaycan şeirinin, xüsusən qoşma janrının inkişaf etməsində və zənginləşməsində müstəsna rol oynamış XVIII əsr sənətkarlarının yaradıcılığı hələ də lazımınca tədqiq olunmamışdır. Qoşma janrının poetikasının M.P.Vaqifin əsərləri əsasında araşdırılması monoqrafik tədqiqata tam əsas verir.

M.P.Vaqif qoşmalarının əsas cəhətlərindən olan canlı danışıqla ədəbi dilin vəhdəti məsələsi və onun poetik təkamülə göstərdiyi böyük təsirin araşdırılması da aktualdır. M.P.Vaqifin yaşayıb-yaratdığı XVIII əsr Azərbaycan xalqının tarixində yeni və mühüm bir dönüş mərhələsi olmuşdur.

Nadir şahın ölümündən sonra Azərbaycan xalqı İran əsarətindən qurtarmaq imkanı əldə etmişdi. Öz istiqlaliyyətini bərpa etmək uğrunda mübarizə genişlənməyə başlamışdı. Bunun nəticəsində Azərbaycanda kiçik xanlıqlar meydana gəlmişdi. Nadir şahın və Ağa Məhəmməd şah Qacarın qısa müddət ərzində Azərbaycana bir neçə basqını xalqın onsuz da dözülməz olan vəziyyətini daha da ağırlaşdırmışdı.

Bu tarixi hadisələr o dövrdə yazıb-yaratmış şairlərin yaradıcılığında öz əksini tapırdı. Şeirdə vətənpərvərlik mövzusu güclənir, xalq həyatı daha qabarıq təsvir olunurdu.

XVIII əsr Azərbaycan şeirindən danışarkən, həmin dövr ədəbiyyatında müşahidə olunan iki əsas cəhəti qeyd etmək məqsədəuyğundur:

Birinci cəhət ondan ibarət idi ki, Nişat Şirvani, Şakir Şirvani, Ağa

Məsih Şirvani kimi klassik üslubun təsiri ilə yazan şairlər Füzuli ənənələrini davam etdirir, onun mütərəqqi cəhətlərinin inkişafına çalışırdılar.

İkinci cəhət isə qoşma üslubunda yazan böyük şairlərin meydana çıxması idi. Vaqif, Vidadi, Xəstə Qasım, Şikəstə Şirin, Raci, Vardanlı Kərim və s. sənətkarlar öz qoşmaları ilə ədəbi dilimizi ümumxalq dilinə yaxınlaşdırırdılar. Canlı danışıq dilinə yaxın olan və geniş xalq kütləsi tərəfindən sevilə-sevilə oxunan qoşmaların əsas yaradıcılarından biri M.P.Vaqif idi.

Dissertasiya Azərbaycan poetika tarixində klassik şeir ənənələrini xalq ədəbiyyatı nümunələri ilə üzvi vəhdətdə birləşdirən, realist üslubu inkişaf etdirən Vaqif qoşmalarının araşdırılması baxımından da çox aktualdır. Qəlbləri riqqətə gətiirən, lirik və həzin, şux və nikbin qoşmaları ilə ədəbiyyat tariximizdə özünəməxsus yer tutan M.P.Vaqif XVIII əsr poetik təkamülünün zirvəsində dayanmışdı.

Dissertasiyada qoyulan problemləri araşdırarkən bir çox görkəmli tədqiqatçıların əsərlərinə istinad olunmuşdur. Mirzə Adıgözəl bəy, Mirzə Camal, Firidun bəy Köçərli, Salman Mümtaz, Araz Dadaşzadə, Əziz Şərif, Həmid Araslı, Ağamusa Axundov, Tofiq Hacıyev, Musa Qasımlı, Mürsəl Həkimov, Kamil Allahyarov, Tofiq Quliyev və b. alimlər qoşma janrının poetikası, M.P.Vaqif yaradıcılığında qoşma haqqında qiymətli fikirlər irəli sürmüşlər.

Dissertasiyada həmin araşdırmalara kifayət qədər istinad edilmişdir. XVII-XVIII əsrlərdə baş verən tarixi hadisələr ədəbiyyat qarşısında yeni və daha mühüm vəzifələr qoyurdu. Ədəbiyyatın yeni istiqamət alması prosesi bir tərəfdən köhnə ədəbiyyatın ənənələrinin davam etdirilməsi, digər tərəfdən isə bədii sənətdə yeni hadisə və ədəbi amillərin yaranması ilə baş verirdi.

XVIII əsrdə Azərbaycan ədəbiyyatı şifahi xalq ədəbiyyatına, aşıq şeirinə daha çox yaxınlaşırdı.

Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda, Nizami adına Azərbaycan ədəbiyyatı tarixi muzeyində M.P.Vaqifin şeirləri yazılmış cünglər və təzkirələr saxlanılır. M.P.Vaqifin qoşmalarının toplanmasında və araşdırılmasında görkəmli Azərbaycan alimi Salman Mümtazın rolunu xüsusi qeyd etmək lazımdır.

M.P.Vaqifin tədqiqatçılarından Abbasqulu Ağa Bakıxanovun, Yusif Vəzir Çəmənzəminlinin, Nəriman Nərimanovun, Seyid Hüseynin, Ənvər Şükürzadənin də adlarını çəkmək istərdik. Y.V.Çəmənzəminli "Qan içində" romanını M.P.Vaqifin həyat və yaradıcılığına həsr etmişdi.

Tarixçi alim Ənvər Şükürzadə M.P.Vaqifin ictimai-siyasi fəaliyyətini tədqiq etmişdir. M.P.Vaqif yaradıcılığına prof. Həmid Araslının, Araz Dadaşzadənin, Əzizə Cəfərzadənin, Mikayıl Rzaquluzadənin, türk alimləri Rafioğlunun, İbrahim Qövsanın, Nihat Sami Banarlının maraqlı tədqiqatları həsr olunmuşdu.

Dissertasiyada qoyulan problemləri araşdırarkən bir çox görkəmli tədqiqatçıların əsərlərinə istinad olunmuşdur. Həmid Araslı, Araz Dadaşzadə, Firidun bəy Köçərli, Seyid Hüseyn, Salman Mümtaz, Ənvər Şükürzadə, Mikayıl Rəfili, Ağamusa Axundov, Toiq Hacıyev, Musa Qasımlı, Mürsəl Həkimov, Kamil Allahyarov, Tofiq Quliyev və başqa alimlərimiz Azərbaycan aşıq sənəti, şeir vəzni, qoşma janrı, M.P.Vaqif yaradıcılığı haqqında maraqlı araşdırmalar aparmışlar.

Ədəbiyyatşünas alimlərdən Əziz Şərifin, Vaqif Yusiflinin, Məmməd Məmmədovun monoqrafik tədqiqatlarında, Mirzəağa Quluzadənin, Məmmədağa Sultanovun məqalələrində, Mikayıl Rzaquluzadənin "M.P.Vaqifin qoşma, təcnis və deyişmələrinin leksikası", Kəmalə İsayevanın "Müasir Azərbaycan poeziyasında qoşma" adlı namizədlik, Əzizə Cəfərzadənin "XIX əsrdə M.P.Vaqifin davamçıları" adlı doktorluq dissertasiyalarında bəhs olunan problemə toxunulmuşdur.

**Tədqiqat işinin obyekti.** Dissertasiyanın əsas tədqiqat obyektini M.P.Vaqif qoşmalarının timsalında qoşma janrının poetikası təşkil edir.

**Tədqiqat işinin predmeti.** M.P.Vaqif yaradıcılığı əsasında XVIII əsr qoşma janrının poetik təkamülünün araşdırılması, qoşma poetikasının səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsidir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Azərbaycan ədəbiyyatında qoşma janrının poetik təkamülü kontekstində M.P.Vaqif qoşmalarının ideya məzmun və poetexnoloji baxımdan kəsb etdiyi xüsusiyyətləri müəyyənləşdirmək, XVIII əsr poeziyasında qoşmanın işlənmə özəlliklərinin elmi-nəzəri izahını

verməkdir.

Bunun üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Azərbaycan şeirində qoşma janrını poetik təkamül müstəvisində izləmək.
- M.P.Vaqif qoşmalarında məhəbbət mövzusunun elmi-filoloji təhlilini vermək.
- Azərbaycan şeirində M.P.Vaqif qoşmalarının poetexnoloji strukturunu (heca, bölgü, qafiyə sistemi, ritmik düzüm, səs və söz ahəngi və s.) sistemli şəkildə tədqiq etmək.
- M.P.Vaqif qoşmalarında lirik qəhrəman və gözəl qadın obrazlarının, insan və məhəbbət, insan və gözəllik mövzularının yeni cəhətlərini üzə çıxarmaq.
- M.P.Vaqif yaradıcılığında qoşma janrının tədqiqat tarixini araşdırmaq.
- M.P.Vaqif qoşmalarında Azərbaycan xalqının və klassik Azərbaycan ədəbiyyatının mənəvi-etik dəyərlərinin ifadəsini tədqiq etmək.
- M.P.Vaqif qoşmalarının bədii məzmununu zənginləşdirən və ona estetik incəlik verən bədii ifadə vasitələrinin (təşbeh, metafora, təkrir, mübaliğə, bədii sual, bədii xitablar və s.) sistemli təhlilini vermək.
- M.P.Vaqif qoşmalarında poetik sözün təsir qüvvəsini – klassik poeziya ilə folklorun qarşılıqlı əlaqəsini araşdırmaq.
- M.P.Vaqif qoşmaları və aşıq sənətini, M.P.Vaqifin sələfləri, müasirləri və xələflərinin yaradıcılığı ilə şairin poetikasının ortaq və fərqli cəhətlərini tədqiq etmək.
- M.P.Vaqif realizmi və novatorluğunu araşdırmaq.
- M.P.Vaqif qoşmalarında lirik qəhrəman və gözəllik ideallarının özünəməxsusluğunu, ideya-estetik orijinallığını tədqiq etmək.
- M.P.Vaqif qoşmalarında nikbinlik və həyatsevərliyi araşdırmaq.
- M.P.Vaqif qoşmalarında kulturoloji və sosioloji amillərin ifadəsini tədqiq etmək.

**Dissertasiyanın nəzəri-metodoloji əsası.** Tədqiqatda başlıca olaraq müqayisəli-tarixi və ədəbi-poetik təhlil prinsiplərinə əsaslanılmışdır. Metodoloji baxımdan müstəqillik dövrünün

istiqamətverici dövlət proqramları əsas götürülmüş və keçmiş Sovet ideologiyasının ənənəvi mədəniyyətə ehtiyatlı münasibətindən uzaqlaşmağa cəhd edilmişdir.

**Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Azərbaycan şeirində qoşma janrının, xüsusən M.P.Vaqif qoşmalarının tarixi inkişafı ilə əlaqəli şəkildə həm ideya məzmun, həm də poetexnoloji baxımdan kəsb etdiyi spesifikliyi müəyyənləşdirmək, M.P.Vaqifin qoşmalarının ideya-bədii özəlliklərinin elmi-nəzəri izahını vermək.
2. Ümumtürk şeir mədəniyyəti kontekstində M.P.Vaqif qoşmalarının poetexnoloji xüsusiyyətlərini dəyərləndirmək.
3. M.P.Vaqif qoşmalarının poetexnoloji strukturunu (heca, bölgü, rədif, qafiyə sistemi, alliterasiya) sistemli şəkildə təqdim etmək.
4. M.P.Vaqif qoşmalarının ritmika-intonasiya, təqti və vurğu özəlliklərini təyin etmək.
5. M.P.Vaqif qoşmalarında bədii təsvir və ifadə vasitələrinin, poetik fiqurların (metafora, epitet, təşbeh, mübaliğə, oksimaron, bədii sual, bədii nida, bədii təzad, anafora, xitablar) işlənmə özəlliklərini müəyyənləşdirmək.
6. M.P.Vaqif qoşmalarında intellektual-fəlsəfi təmayülün özünəməxsus ifadəsini aşkarlamaq.
7. M.P.Vaqif qoşmalarında məhəbbət mövzusunun elmi-filoloji təhlilini vermək.
8. M.P.Vaqif qoşmalarında realizmin və novatorluğun yeni cəhətlərini üzə çıxarmaq.
9. M.P.Vaqif qoşmalarinda lirik qəhrəman və gözəllik ideallarinin özünəməxsusluğu, ideya-estetik orijinallığı.
10. M.P.Vaqif qoşmalarında sosioloji və kulturoloji amillərin ifadəsini izah etmək.
11. M.P.Vaqif qoşmalarında nikbinlik və həyatsevərliyin ifadəsini aşkarlamaq.

**Dissertasiyanın elmi yeniliyi.** Qoşma janrı Azərbaycan ədəbiyyatında araşdırılsa da, M.P.Vaqif qoşmalarının poetik xüsusiyyətləri xüsusi tədqiqat obyektinə çevrilməmişdir. M.P.Vaqif qoşmalarının poetikasının, məzmun və sənətkarlıq xüsusiyyətlərinin sistemli şəkildə monoqrafik tədqiqatın predmetinə çevrilməsi bu

dissertasiyanın timsalında ilk elmi cəhddir. Tədqiqat işində ilk dəfə olaraq M.P.Vaqif yaradıcılığında klassik poeziya ilə folklorun qarşılıqlı əlaqəsi, poetik sözün təsir qüvvəsi kimi məsələlər diqqət mərkəzində dayanmışdır. Dissertasiyada ilk dəfə olaraq M.P.Vaqif qoşmaları tarixi poetika müstəvisində araşdırılmışdır. Bu baxımdan M.P.Vaqif qoşmalarında dünyanın obrazlı dərkinin üsul və vasitələrinin təkamülünün, onların sosial-estetik funksiyasının tədqiqi sistemli şəkildə aparılmışdır.

Dissertasiyada ilk dəfə olaraq M.P.Vaqif poetikasının bədii ifadə formalarının və vasitələrinin təkamülü sistemli şəkildə tədqiq edilmişdir. Dissertasiyada ilk dəfə olaraq M.P.Vaqif qoşmalarında məhəbbət, gözəllik, dünyəvilik, real həyatın ifadəsi kimi problemlərin elmi-filoloji təhlili verilmişdir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya Azərbaycan ədəbiyyatı tarixini, M.P.Vaqif yaradıcılığını və qoşma janrının poetik təkamül tarixini yeni müddəalarla zənginləşdirir.

Azərbaycan ədəbiyyatında qoşma janrı potikasının və M.P.Vaqif qoşmalarının bədii, sosioloji, kulturoloji, nəzəri spektrləri müəyyənləşdirilir, onların dəyərləndirilmə xüsusiyyətləri şərh olunur.

Dissertasiyanın ən mühüm nəzəri əhəmiyyəti odur ki, M.P.Vaqifin qoşmalarının timsalında Azərbaycan ədəbiyyatında bu janrın inkişaf sistemini araşdırır, poetik təkamülün bəzi problemlərinə aydınlıq gətirir, XVIII əsr şeirinin bəzi məsələlərinin şərhinə yeni faktlar verir.

Dissertasiya Azərbaycan ədəbiyyatına aid dərsliklərin hazırlanması işində səmərəli ola bilər. Ali məktəblərdə tədris edilən ədəbiyyatla bağlı bir sıra fənlərin bakalavr və magistr səviyyəsində tədrisi zamanı bu dissertasiyadan tədris materialı kimi faydalanmaq mümkündür.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları respublikada və xaricdə nəşr olunan nüfuzlu elmi jurnallardakı məqalələrdə, beynəlxalq elmi-praktik konfranslardakı məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Bakı Dövlət Universiteti,  Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısında ibarətdir. Giriş – 6 səhifə, I fəsil – 51 səhifə, II – fəsil 63 səhifə, III – fəsil 95 səhifə, nəticə – 5 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı – 19 səhifədir. Dissertasiya işi ümumilikdə 179 səhifə, 283 225 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, işlənmə dərəcəsi, fərziyyəsi, işin aprobasiyası, dissertasiyanın qurluşu haqqında məlumat verilir, müdafiəyə təqdim edilmiş müddəalar araşdırılır.

Birinci fəsil **"Azərbaycan şeirinin qoşma janrında poetik təkamülün nəzəri problemləri"** adlanır və üç yarımbölmədən ibarətdir. 1. Azərbaycan şeirində qoşma janrının mühüm poetik vasitələri və onların bədii estetik dəyəri (ritmik düzüm, səs və söz ahəngi, yığcam və hikmətli məzmun). 2. Azərbaycan şeirinin qoşma janrı və Vaqif qoşmaları poetik təkamül müstəvisində. 3. Azərbaycan şeirinin qoşma janrında məzmunu zənginləşdirən və ona estetik incəlik verən bədii vasitələr (təşbeh, istiarə, təkrir, mübaliğə və s.). Bədii təxəyyülün ifadəsində onların əhəmiyyəti. Bu yarımbölmələrin hər birində problemin ayrı-ayrı cəhətləri təhlil olunur. Dissertasiyanın **"Azərbaycan şeirində qoşma janrının mühüm poetik vasitələri və onların bədii-estetik dəyəri (ritmik düzüm, səs və söz ahəngi, yığcam və hikmətli məzmun)"** adlanan birinci fəslinin birinci yarımbölməsində poetika söz sənətinin nəzəri əsasları və qanuna uyğunluqları öyrənilir. M.P.Vaqifin qoşmalarında sözlər, obrazlar, rəmzlər misra-misra düzülür. Bu qoşmalarda sözlərin seçimi, səs ahəngi, misralar arasındakı harmoniya çox əhəmiyyətlidir. Şair hər bir sözü məntiqi dəqiqliklə seçərək öz yerində işlətmişdir.

Qoşmaların ritmik durumunda xüsusi əhəmiyyət kəsb edən amillərdən biri vəzndir.

N.Göyüşov "Milli sənətin nəzəri təhlilinə giriş"[1] əsərində vəznin söz düzümündə və poetikada aşağıdakı təsir yönlərini müəyyənləşdirir: vəzn musiqi ahənginə uyğun ritmik düzüm yaratmaqla insan duyğularına emosional təsir göstərir, vəzn söz düzümündə ritmik zərbələri, fasilə və parçaları tənzimləyir, onları bir-biri ilə bağlayır, vəzn söz düzümündə ümumi ahəngdarlıq, tənasüblük və harmoniya yaradır, vəzn sözdə təkid çalarını gücləndirir, onun yaddaşda möhkəmlənməsinə imkan yaradır.

M.P.Vaqif qoşmalarında ritm elə bir keyfiyyətdir ki, onun sayəsində mətni təşkil edən sözlər ahəngdar nizama nail olur. Ritm poeziya dilinin əsasını təşkil edir. M.P.Vaqifin qoşmalarında mətnin ritmik quruluşu intonasiya gözəlliyinə yol açır, daxili dinamikaya təkan verir, estetik səslənmə keyfiyyəti yaradır.

M.P.Vaqifin qoşmalarında söz-səs tərkibi ilə melodik səslənmə estetik vəhdət təşkil edir.

M.P.Vaqifin qoşmalarında vəzndən əlavə qafiyənin də mühüm rolu vardır. Qafiyə vəznin təkmilləşməsinə xidmət edir. Qafiyə misra və beytlərin sonunda səs-söz ahəngi və uyğunluqdur. Misraların sonunda təkrarlanan sözlər, rədifdən əvvəl ritmik baxımdan uyğunlaşan sözlər qafiyə adlanır.

Şairin dilində cinaslardan da geniş istifadə olunur. Cinaslarda sözün ahəngi və biçimi, məna dəyişmələri çox güclü emosional təsir qüvvəsinə malik olur. Şairin qoşmalarında tez-tez qulaq qafiyələrinə də rast gəlinir. M.P.Vaqif qoşmalarında səc adlanan daxili qafiyədən də istifadə edilir. Bu daxili qafiyələr şeirdə sanki musiqi düzümü yaradır, onu ahəngdar edir. Belə qoşmalarda orta hecalar da qafiyələndiyi üçün onlar qoşa yarpaq adlanır. M.P.Vaqifin qoşmalarında poetik vasitələrdən biri də hecanın yaratdığı ahəngdir. Qalınla qalın, incə ilə incə saitlərin ahəngindən başqa, sait-samit ahəngi də M.P.Vaqif poeziyasında aydın hiss olunur.

M.P.Vaqifin qoşmalarında təkrirlər forma və məzmunca zəngindir, çoxmənalıdır, müxtəlif semantik çalarlara malikdir. Qoşma janrında təqtilər xüsusi əhəmiyyətə malikdir. M.P.Vaqifin qoşmalarında birinci bənd bir, ikinci bənd isə başqa bir təqti ilə

[1] Göyüşov, N. Milli sənətin nəzəri təhlilinə giriş / N.Göyüşov. – Bakı: Nurlan, – 2006. – s. 84-86

yazılır.

**"Azərbaycan şeirinin qoşma janrı və Vaqif qoşmaları poetik təkamül müstəvisində"** adlanan ikinci yarımbölmədə poeziyamızda qoşma janrının təkamülündən bəhs olunur. Ümumi poetika mütləq tarixilik prinsiplərinə əsaslanmalıdır və özündə tarixiliyi, həmçinin bədii formaların təkamülünü ehtiva etməlidir. Tarixi poetika Aristotel tərəfindən əsası qoyulmuş ümumi poetikanın bir hissəsidir. Rus ədəbiyyatşunası A.N.Veselovskinin fikrincə, *"tarixi poetika öz məzmununa görə genetik poetika idi* [2]. Azərbaycanda tarixi poetikanın əsas tədqiqat istiqamətlərinə ədəbiyyat tarixinin müxtəlif dövrlərinin poetikası, dünya və Azərbaycan ədəbiyyatı klassiklərinin tarixi poetikası, milli ədəbiyyatların poetikası və bədii əsərlərin poetikası daxildir. *Tarixi poetika* ədəbi prosesin hər hansı bir janrının təhlilində formaların təkamül dialektikasını araşdırır. *Genetik poetikada* ədəbiyyat tarixinin müxtəlif dövrlərində hər hansı bir janrın qədim klassik şeirlə və folklorla əlaqələri aşkara çıxarılır. Azərbaycan ədəbiyyatında tarixi poetikanın təkamül yolu genetik və retrospektiv meyillərlə səciyyələnir. Azərbaycan ədəbiyyatı tarixi poetik şüurun ümumi inkişaf prespektivlərini açır.

Azərbaycan şeirində qoşma janrının nəzəri poetikasının əsas problemi poetik ifadə vasitələrinin sistematik araşdırılması, onların müqayisəli bölgüsü və təsviridir. Qoşma *janrının nəzəri poetikası* bədii yaradıcılığın məhsulu olan şeirlərin forması, struktur tipləri və növləri haqqında elmdir. Azərbaycan şeirində qoşma janrının poetikası bədii ifadə vasitələrinin tarixi təkamül dövrləri ilə, şifahi xalq ədəbiyyatı ilə əlaqədardır...Azərbaycan şeirində qoşma janrının poetikası müxtəlif aspektlərin: milli mədəniyyətin və beynəlxalq mənəvi dəyərlərin ifadəsi baxımından əhəmiyyətlidir. Poetik fikrin təkamülündə ibtidai-sinkretizim nəzəriyyəsinin xüsusi əhəmiyyəti vardır. A.N.Veselovskinin "Tarixi poetika" əsərində bu sinkretizmin ictimai və etnopsixoloji əsasları araşdırılır.[3] Alimin fikrincə, *"qədim xor sinkretizmdən poetik növlər və janrlar yaranmışdır".*

---

[2] Веселовский, А. Историческая поэтика / А.Веселовский. – Ленинград: Художественная литература, – 1940. –с. 95-97

[3] Веселовский, А. Историческая поэтика / А.Веселовский. – Ленинград: Художественная литература, – 1940. – с. 493-497

A.N.Veselovski ibtidai sinkretizmi poeziyanın, rəqsin və musiqinin sintezi kimi qəbul edirdi. Lirika, epos və dram buradan yaranmışdı. Bu ədəbi növlərin ilkin beşiyi isə xalq mərasimləri idi. A.N.Veselovskinin konsepsiyasına əsasən, bu sinkretizmin əsasını ritm təşkil edirdi. Bu ritmləri təşkil edən mətnlər isə tarixin sonrakı dövlərində yaranmışdı. Lirik-epik növlər isə ibtidai sinkretizmin sonrakı mərhələləri idi. Xalqın, poetikanın və şairin yaşaması və bir-birini yaşatması dialektik qanunauyğunluqdur.

M.P.Vaqif qoşmalarında ədəbi proses bir şəbəkə şəklində bütün tarixi, psixoloji, etnopsixoloji amillər nəzərə alınmaqla ifadə olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan şeirinin qoşma janrını tarixi poetikanın təkamül müstəvisində araşdırmağı qarşıya məqsəd qoymuşuq. M.P.Vaqif yaradıcılığında qoşma janrının poetikası Azərbaycan poetik şüurunun özünəməxsus dərkini ifadə edirdi.

Fikrimizcə, Azərbaycan şeirində qoşma janrının poetikasını araşdırarkən, poetik prinsiplərin tarixi təkamülünə və mənşəyinə, bədii ifadə vasitələrinin və formalarının konkret tədqiqat üsullarına xüsusi fikir verməliyik. M.P.Vaifin qoşmaları poetik düşüncəni təmsil edir. Hər bir misra bitkin bir poetik düşüncənin ifadəsidir.

Azərbaycan şeirinin qoşma janrında, o cümlədən M.P.Vaqif qoşmalarında folklordan qaynaqlanan, artıq müəyyənləşmiş ədəbi qəliblər, bədii obrazlar, poetik təxəyyül, estetik dəyərlər mövcuddur. Bu qoşmalarda aşıq yaradıcılığı özəlliklə seçilir və daha çox folklor ənənələrindən yararlanır.

Azərbaycan şeirinin qoşma janrında, o cümlədən M.P.Vaqifin qoşmalarında poetik təxəyyülün qaynaqları olaraq ilkin əsatiri, düşüncə tərzini, əski inanc və mərasim mətnlərini, el ədəbiyyatını, “Qurani-Kərim”in hədis və qüssələrini, elmi-fəlsəfi və təsəvvüf ədəbiyyatını göstərmək olar.

**Dissertasiyanın birinci fəslinin üçüncü yarımfəsli “Azərbaycan şeirinin qoşma janrında bədii məzmunu zənginləşdirən və ona estetik incəlik verən bədii vasitələr (təşbeh, istiarə, təkrir, mübaliğə və s.). Bədii təxəyyülün ifadəsində onların əhəmiyyəti”** adlanır.

M.P.Vaqifin qoşmalarındakı təşbehlər də şeirin qayəsinin və lirik qəhrəmanın xarakterinin hərtərəfli açılmasında, şeirin bədii məzmun

və ideyasının təqdimində mühüm rol oynayır.

Məcaz dilin ifadə imkanlarını artıran, onun lüğət tərkibini zənginləşdirən amillərdəndir. Məcazlaşdırma üslubi keyfiyyətdir və sənətkarlıq komponentlərinin ən mühümü sözün məcazlaşdırılmasıdır. M.P.Vaqifin qoşmalarındakı məcazlar ustalıqla verilir, şeirin bədii üslubuna incəliklə nüfuz edir. Şairin qoşmalrında ritorik suallardan da çox istifadə olunur. Bu suallar vasitəsilə poetik fikir daha böyük zəriflik və incəliklə ifadə olunur.

M.P.Vaqifin qoşmalarında işlədilən əsas bədii təsvir vasitələrindən biri metafordur. Azərbaycan ədəbiyyatında metaforun zəngin ənənəsi vardır. Metaforaya şərq ədəbiyyatında istiarə də deyilir. M.P.Vaqifin yaradıcılığında təcnislər xüsusi yer tutur.

Təzadların və antitəzadların əsası söz və ifadələrin antonimliyidir. Bununla yanaşı, təzadlar həm də obraz və hadisələrin müqayisəli məqamında əmələ gəlir. Vaqifin qoşmalarında təzad həyatın özündən qaynaqlanır. Qoşmalardan danışarkən mübaliğəni xüsusi qeyd etmək lazımdır. Şairin poeziyasında romantik pafos da güclüdür. Bu qoşmaların təsvir və intonasiyalarında, ahəng və ritmində mübaliğələrin öz yeri, öz əhəmiyyəti vardır. M.P.Vaqifin qoşmalarında müqayisə sadə bəzək yaratmaq üçün deyil, predmet, anları və hadisələri daha dəqiq tanımaq məqsədilə aparılır. Nəsirəddin Tusi müqayisəyə fəlsəfi baxımdan yanaşaraq, onu söz təqlidi adlandırır. M.P.Vaqifin müqayisə vasitələri həcmcə kiçik olsa da, öz gözəlliyi, zərifliyi ilə təsvir obyektini yüksəldir: aşiqindən ayrılmış yar boynu bükük bənövşə, sevgili isə qönçə ilə müqayisə edilir. M.P.Vaqifin qoşmalarında alliterasiyanın da rolunu xüsusi qeyd etmək lazımdır. Qədim türk şeirinin aparıcı sahələrindən olan alliterasiya böyük əhəmiyyətə malikdir. Rus alimi A.M.Şerbak alliterasiya haqqında yazır: "*Biz alliterasiyaya hər hansı başlanğıc, səslərin və səs qruplarının dəqiq və təxmini səslənməsi, eyni zamanda hər şeirin və bəndin ilk hecasından başlayan və ahəng qanununa əsaslanan müəyyən keyfiyyət əlamətlərinin səslənməsi kimi baxırıq*".[4] M.P.Vaqifin qoşmalarında epitetlər də ifadə tərzinin digər təsvir vasitələri kimi qeyri-adiliyi, mürəkkəbliyi onun izah etdiyi məzmunun qeyri-adiliyindən irəli gəlir. Şairin qoşmalarında işlənən

[4] Щербак, А.М. Соответствие аллитерации и рифмы в тюркском стихосложении // Народы Азии и Африки, – 1964. № 2, с. 24-26

epitetlərin əksəriyyəti məcazi xarakterə malikdir. M.P.Vaqif emosionallığı və təsir gücü ilə bir-birindən fərqlənən epitetlər yaratmışdır ki, bu da dövrün, mühitin və mövzunun tələbindən irəli gəlir.

M.P.Vaqif üslubi fiqur kimi xitablardan novatorluqla istifadə etmişdir. Vaqifin qoşmalarında xitablar, əsasən, gözəl qadınlara aid edilir, şairin böyük məhəbbətinin ifadəsinə çevrilir.

Azəri türklərinin daxili hiss-həyəcanlarının, dərin düşüncəsinin ifadə edilməsində qoşma janrının rolu əvəzolunmazdır. Qoşma janrının əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada əks etdirilən anlayış ətrafında lirik mühakimə, fəlsəfi düşüncə önə keçir, poeziya yaranır.

Yeni Azərbaycan poeziyasının banisi kimi tanınan M.P.Vaqif qəzəlləri və müxəmməsləri ilə xalqın rəğbətini qazansa da, öz istedadını qoşma janrında daha aydın göstərə bilmişdir. Bu janrda M.P.Vaqif dünyəvi məhəbbəti, sadə həyatda rast gəlinən sevinc və fərəh hislərini, real məhəbbəti tərənnüm edirdi. O dövrdə orta əsrlər poeziyasının, onun əsrlər boyu dəyişməz sayılan qayda-qanunlarının el ədəbiyyatının güclü təsiri ilə dəyişməsi dövrün ədəbi prosesinə çevrilir.

II fəsil **“M.P.Vaqifin qoşmalarının səciyyəvi xüsusiyyətləri” adlanır. II fəslin birinci yarımfəsli “M.P.Vaqif yaradıcılığının və şairin qoşmalarının tədqiqat tarixi”** adlanır. XVIII əsrdə şifahi xalq ədəbiyyatı ilə yazılı poeziya ənənələri arasındakı qarşılıqlı əlaqə o qədər güclənmişdi ki, yazılı ədəbiyyatda bu iki cərəyan ənənəvi və yenilikçi meyillərin sintezinə gətirib çıxarmışdı.

M.P.Vaqifin yaradıcılığı klassik Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirdi, onu qanadlandırdı. M.P.Vaqifin qoşmaları artıq XVIII əsrin son rübündən toplanmağa başlanmışdı. Onun şeirləri hissə-hissə, cümlə-cümlə, beyt-beyt toplanır və qorunurdu. Şairin bir çox qoşmaları aşıq şeirində qorunub saxlanmışdı. Poeziya həvəskarları öz sevimli şairlərinin şeirlərini, qəzəllərini, müxəmməslərini toplayıb xüsusi cünglərə köçürərək saxlayırdılar. Bu cünglər elm üçün çox dəyərlidir. M.P.Vaqifin müasiri və qatili Məhəmmədbəy Cavanşirə məxsus cüng, şübhəsiz, XVIII əsrin sonuna aid edilməlidir və Qarabağ xanlığnın baş vəziri, görkəmli dövlət xadimi Vaqif barədə yazdıqları əlyazmalar şəklində qalırdı. Bu əsərlərin çap olunması

işinə isə yalnız XX əsrin sonrarından başlanıldı. M.P.Vaqif lirikasının xüsusiyyətləri barədə ilk dəfə Axundov yazmışdı. Abbasqulu ağa Bakıxanov da "Gülüstani-İrəm" əsərində M.P.Vaqif barədə söz açır. Yusif Vəzir Çəmənzəminli "Qan içində" romanında M.P.Vaqifin həyat və yaradıcılığından bəhs edir.

M.P.Vaqif yaradıcılığının ilk tədqiqatçılarından biri Firidun bəy Köçərli idi. Onun "Материалы об истории азербайджанской литературы" ("Azərbaycan ədəbiyyatı tarixinə dair materiallar") adlı əsəri 1925-ci ildə Bakıda nəşr edilmişdir. Bu əsərdə M.P.Vaqifin həyat və yaradıcılığı, onun milli ədəbi tariximizdəki yeri geniş və hərtərəfli təhlil edilmişdir. M.P.Vaqifin tədqiqatçıları arasnda görkəmli Azərbaycan şairi Salman Mümtazın da adını çəkmək lazımdır. O, Vaqifin şeirlər toplusunu iki dəfə çapa hazırlamışdı. M.P.Vaqif irsinin tədqiqatçıları arasnda Əziz Şərifin, Məmmədhüseyn Təhmasibin, Feyzulla Qasımzadənin, Mirzəağa Quluzadənin və başqalarının adlarını çəkmək olar.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli **"Yazılı ədəbiyyatda M.P.Vaqifin sələfləri, müasirləri və xələfləri"** adlanır.

M.P.Vaqifin sələfləri arasında böyük şairimiz Məhəmməd Füzulinin oğlu Bağdadlı Fəzlinin adını çəkməyi lazım bilirik. Bağdadlı Fəzlinin, Məhəmməd Əmaninin, Şah İsmayıl Xətainin nəvəsi İbrahim Cahinin qoşma janrında yazdığı şeirlər xüsusi əhəmiyyət kəsb edir. Prof. H.Araslı yazır: *"Bu şeirin Azərbaycan xalq şeiri ilə səsləşməsi, ondan istifadə etməsi onun ən yaxşı cəhətlərindən idi".*[5]

XVII-XVIII əsrlər ədəbiyyatımızın realist yaradıcılıq metoduna keçid dövrü idi. Bu dövrdə qəzəl klassik poeziyanın aparıcı janrı sayılsa da, ona qarşı qoyulan janr qoşma idi. Qoşma fərdi yaradıcılıq üslubu üçün daha geniş meydan açır, daha xəlqi və demokratik səciyyə daşıyır, ədəbi dili xalq dilinə yaxınlaşdırır, sosial mövzular və problemləri daha səlist ifadə edə bilirdi.

M.P.Vaqifin müasirlərindən Baba Şirvaninin, Hamidinin, Məlalinin, Şikəstə Şirinin, Ağqız oğlu Pirinin, Şəki xanı Məhəmmədhüseyin xan Müştaqın, Rafeinin, Mirhüseyin Lənbəraninin, Ağa Məsih Şirvaninin,

---

[5] Araslı, H. Aşıq yaradıcılığı / H.Araslı. – Bakı: Birləşmiş nəşriyyat, – 1960. – s. 102-104

Arif Təbrizinin, Arif Şirvaninin, Şəkili Nəbinin, Məhcurun, Şeyfixanın, M.V.Vidadinin adlarını çəkmək lazımdır.

Həyata real münasibət, sevgilini xəyallar aləmindən uzaqlaşdırmaq təşəbbüsləri XVIII əsrdə təkcə M.P.Vaqifin adı ilə bağlı deyildir.

Adolf Berje yazır: *"Ağa Məsih Vaqifin müasiridir. O, müsəlmanlar arasında öz şeirinin zərifliyi ilə şöhrət qazanmışdır"*[6]. M.P.Vaqifin müasirləri arasında onun yaxın dostu M.V.Vidadinin xüsusi yeri vardır. Vidadi yaradıcılığında nəzər-diqqəti cəlb edən əsas cəhət onun yaradıcılığında dərin bir kədərin olmasıdır. Vidadinin yaradıcılığı xalq şeiri, qoşma janrı ilə sıx bağlı idi. Qoşmalarında eşqi, məhəbbəti, gözəlliyi özünəməxsus şəkildə tərənnüm edən şair aşiqlərin öz məhəbbəti yolunda bütün əziyyətlərə dözdüyünü qeyd edirdi. M.P.Vaqifin davamçıları arasında görkəmli şairimiz Qasım bəy Zakirin adını çəkmək istərdik. Qasım bəy Zakirin qoşmaları öz ideya dərinliyi, bədii formaların rəngarəngliyi ilə seçilir. O, klassik üslubda yazdığı qəzəlləri, müxəmməs, müstəzad, tərcibənd, tərkibbəndləri ilə yanaşı, yaradıcılığında xalq şeiri formasına – qoşma, təcnis və gəraylılara da geniş yer ayırmışdır.

Qasım bəy Zakirin öz sadəliyi, oynaqlığı ilə nəzəri cəlb edən qoşmalarında odlu bir qəlb ilə sevən aşiqin iztirabları səmimi ifadə olunmuşdur.

II fəslin üçüncü yarımfəsli **"Klassik poeziya ilə folklorun qarşılıqlı əlaqəsi. M.P.Vaqifin qoşmalarında poetik sözün təsir qüvvəsi. M.P.Vaqif qoşmaları və aşıq sənəti"** adlanır. M.P.Vaqif yaradıcılığıda klassik poeziya ilə folklorun qarşılıqlı əlaqəsi, poetik sözün təsir qüvvəsi kimi məsələlər diqqəti daha çox cəlb edir. M.P.Vaqif qoşmalarında şeirin daxili potensialı çox zəngindir. Bu qoşmalar öz incə məna çalarları ilə insan qəlbini riqqətə gətirir.

XVIII əsr poeziyasında qoşma janrı klassik poeziyanın və xalq aşıq şeirinin bünövrəsi üzərində ucalmışdır.

XVIII əsri bir növ keçid dövrü hesab etmək olar. Bu keçid dövrünü yekrəng və monolit bir axın kimi təsəvvür etmək düzgün olmazdı. Burada müxtəlif çalarlı meyllər özünü biruzə verir. Bu baxımdan M.P.Vaqifin, keçid dövrünün bu böyük sənətkarının yaradıcılığının

---

[6] Köçərli, F. Azərbaycan ədəbiyyatı tarixi materialları / F.Köçərli. – Bakı: Azrnəşr, – 1925. – s.35-37

təhlili XVIII əsrdə Azərbaycan ədəbiyyatında gedən proseslərin mürəkkəbliyini üzə çıxarmağa imkan verir.

*“Məhz öz tarixi nikbinliyi sayəsində M.P.Vaqif klassik şərq romantizminin poetikasını daha dərindən sarsıda bildi və bununla Azərbaycan ədəbiyyatının gələcək istiqamətini müəyyənləşdirdi. Bu ilk növbədə yeni ədəbi dilin formalaşmasında xüsusi əhəmiyyətə malik oldu”*[7] Realist yaradıcılıq metodunun təkamülü dövründə klassik Şərq romantizminin poetikasını dəf etmək üçün onun aparıcı janrı olan qəzələ qarşı əsas parametrləri ilə ona uyğun gələn bir janr lazım idi. Bu yeni janr öz poetik xüsusiyyətləri baxımından qəzələ bənzəməklə yanaşı, bəzi mühüm keyfiyyətləri ilə ondan fərqlənməli idi. Ədəbi dili xalq dilinə yaxınlaşdırmalı, Azərbaycan xalqına doğma olmalı idi. Keçid mərhələsində bu mühüm tarixi rol qoşmanın üzərinə düşdü”.

“Qəzəlin və qoşmanın oxşarlığı onların obrazlar sisteminin oxşar olması ilə müəyyənləşir. Hər iki janr insanın daxili aləmini, hiss və həyəcanlarını ifadə etmək üçün yaranmışdır və yüksək ümumiləşdirmə potensialına malikdir” [8] . *Qəzəl* mücərrəddir və gerçəkiyi yaradan sənətkarın özünəməxsus konkret xüsusiyyətlərinin meydana çıxmasına imkan vermir. *Qoşma* oynaqdır, məzmun baxımından son dərəcə nikbin janrdır, ən çətin məqamlarda, ən ümidsiz anlarda belə, çıxış yolu tapmağa imkan verir, zarafat, gülüş, incə yumor, özünütənqid bu janrın aparıcı poetik xüsusiyyətidir.

Azərbaycan ədəbiyyatında qoşmanın ən gözəl nümunələri, əlbəttə ki, M.P.Vaqifə məxsusdur. Lakin XVIII əsr şeirində qoşma janrının inkişafını yalnız M.P.Vaqiflə bağlamaq düzgün deyildir. Burada Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Aşıq Məhəmməd, Aşıq Hüseyn, Aşıq Pəri, Mirzəcan Mədətov, Aşıq Alı və Aşıq Ələsgər haqqında məlumat vermiş, Vaqiflə müqayisə etmişəm.

XVII-XVIII əsrlər ədəbiyyatımızın realist yaradıcılıq metoduna keçid dövrü idi. Bu dövrdə qəzəl klassik poeziyanın aparıcı janrı sayılsa da, ona qarşı qoyulan janr qoşma janrı idi.

Dissertasiyanın ikinci fəslinin dördüncü yarımfəsli **“M.P.Vaqifin**

---

[7] Araslı, H. XVII-XVIII əsrlər Azərbaycan tarixi ədəbiyyatı: dərslik / H.Araslı. - Bakı: ADU, - 1956. – 402 s.

[8] Azərbaycan ədəbiyyatı tarixi poetikası / - Bakı, I kitab, - 1989. – s. 91-95

**qoşmalarında məhəbbət və gözəlliyin ifadəsi. Lirik qəhrəman və gözəl qadın obrazları"** adlanır. XVIII əsrdə Azərbaycan şeiri xalq poeziyasından bəhrələnərək yüksək zirvəyə çatmışdı. Lirika bu dövr Azərbaycan şeirində xüsusi vüsət almışdı. Rus şairi Antokolski "Azərbaycan şairləri" məcmuəsində yazırdı: *"Azərbaycan poeziyasının ən fərqləndirici və parlaq xüsusiyyətlərindən biri bütün dövrlərdə və hər fərdi yaradıcılıqda onu musiqi və mahnı ilə yaxınlaşdıran gərgin lirizmin mövcud olmasıdır"*[9].

Lirikada insanın daxili aləmi, onun hisləri və düşüncələri bədii şəkildə mənimsənilir. Lirikada hislərin dinamikası, lakosionallıq əsas səciyyəvi xüsusiyyətlərdir. M.P.Vaqifin qoşmaları öz lirizmi, incə hislərin bədii dil vasitəsilə ifadəsi ilə seçilir. M.P.Vaqifin qoşmalarında müəllifin, subyektiv düşüncələri əsas yer tutsa da, bu lirik əsərlər həm də ümumbəşəri məzmun daşıyır. Bu qoşmalarda təsvir daha təsirli, daha emosional bir şəkildə verilir. Vaqif eşq şairidir. Onun lirik qəhrəmanı böyük məhəbbətə qadir, öz eşqi uğrunda hər cür maneələri dəf etməyə hazır olan, özünü və eşqini dərk edə bilən bir insandır. M.P.Vaqif qoşmalarının lirik qəhrəmanı sədaqətli aşiq kimi eşqi ilə, məhəbbəti ilə fəxr edir, sevgilisinin vüsalından kənarda nə varsa, hamısından imtina etməyə hazır olduğunu bildirir. Şairin lirik qəhrəmanı sevgilisini İslam aləminin müqəddəs ziyarətgahları Kəbə, Məkkə, Kərbəla və Mədinə ilə müqayisə edir, gözəlin qaşlarına qiblə deyib baş əyərək ibadət etməyi daha üstün tutur. Bu lirik qəhrəmanın eşqi yüksək hünər və dəyanət nümunəsidir. Eşqin əzəmətini, məhəbbətin böyüklüyünü yalnız sevməyi, könül verməyi bacarmayan bədbəxtlər, sevginin nə olduğunu başa düşə bilməyən nadanlar dana bilər. M.P.Vaqifin lirik bir şair kimi yetişməsində onun dövrünün, ədəbi mühitinin müəyyən rolu vardır. Ədəbi nöqteyi-nəzərdən bu dövrün iki səciyyəvi xüsusiyyəti daha çox nəzərə çarpır. XVIII əsrdə lirik şeir xalq poetik yaradıcılığına əsaslanır və inkişaf edirdi. M.P.Vaqifin şeirləri yalvarışları deyildir, ehtiraslı, tələbkar məhəbbətin tərənnümüdür. Şairin yaradıcılığında klassik şeirlə folklorun çox maraqlı sintezi özünü göstərir. M.P.Vaqif qoşmalarının təsvir obyekti gözəllərdir.

[9] Антокольский, П. Поэты Азербайджана / - Москва - Ленинград: Советский писатель, - 1962, - с. 24-26

Öz qeyri-adi gözəllikləri ilə bir-birindən seçilən, hərəsi bir cür gözəl olan bu qız-gəlinlərin vəsfi qoşmaların əsas mövzusudur.

Şair öz qoşmalarında Azərbaycan gözəllərinin mükəmməl obrazını yaradır, bədii təsvir vasitələrinin köməyi ilə sanki onların xəyali rəsmini çəkir. M.P.Vaqif gözəllərdən danışarkən təkcə zahiri keyfiyyətlərlə kifayətlənmir. Onun təsvir etdiyi qadınlar həm də mənəvi cəhətdən gözəl, həyalı, abırlı, ismətli, incə zövqlü xanımlardır. M.P.Vaqifin özündən əvvəlki Azərbaycan şairlərindən, xüsusən M.Füzulidən öyrəndiyi diqqəti cəlb edir. Professor M.Quluzadə yazır: *"M.P.Vaqifin şeirlərində Məhəmməd Füzulinin təsviri bədii təsvir vasitələrində olduğu kimi, məzmun və ideya motivlərində də özünü göstərir.*[10] Professor Mir Cəlal yazırdı: *"Vaqif öz şeirlərində orjinallıq göstərən, öz səsi, öz nəfəsi olan, xüsusi üsluba malik sənətkar kimi yüksəlmişdi.*[11] .

Dissertasiyaanın üçüncü fəsli **"M.P.Vaqifin qoşmalarının sənətkarlıq xüsusiyyətləri"** adlanır. Dissertasiyanın üçüncü fəslinin birinci yarımfəsli **"M.P.Vaqifin qoşmalarında realizim və novatorluq"** adlanır. Milli zəmində və xalq ədəbiyyatı ilə ülvi bağlılıq hər bir şair üçün səciyyəvi keyfiyyətdir. M.P.Vaqif poeziyasında realizm qabarıq şəkildə təzahür etmişdir. Şairin qoşmalarının bədii xüsusiyyətlərini klassik ədəbi irsimizlə müqayisədə öyrəndikdə bunu daha aydın görmək olar. Gündəlik həyatla bağlılıq, ətraaf mühitlə bilavasitə arasıkəsilməz və canlı əlaqə yaradıcılığının doğma ana dili zəminində inkişaf etməsi, xalq ifadələrindən və təşbehlərindən qidalanması M.P.Vaqifin qoşmalarında realizmin, realist bədii təsvir vasitələrinin güclü şəkildə özünü göstərməsinə səbəb olmuşdur.

M.P.Vaqifin qoşmalarında realizmin püxtələşdiyini, təkmilləşdiyini müşahidə etmək olar. *"Realizm – bədii təfəkkürün elə təzahürüdür ki, o, materialını, mündəricəsini, ideallarını, təsvir vasitələrini, obrazlarını real varlıqdan alır və xəyalı aləmlə uğraşan, yaxud real varlığın obrazlarını rəmzlərə çevirib, onlara mistik, məfhumi mənalar verən, inandırıcılıqdan çox uzaq rəmzlər yolu tutan ədəbi-bədii cərəyanlara*

---

[10]Quluzadə, M. Füzuli ənənələrinin Vaqif və Vidadi lirikası ilə əlaqəsi məsələlərinə dair // – Bakı: Azərbaycan EA-nın Xəbərləri, İctimai seriya, – 1962. № 6, – s.75-84

[11]Paşayev, M.C. Füzulinin sənətkarlığı / M.C.Paşayev. – Bakı: ADU, – 1959. – s. 91-92

*qarşı durur.*[12]. Realizim ədəbiyyatda ən qədim zamanlardan təzahür etməyə başlamışdır. Bəzi tədqiqatçılar realizmin bədii yaradıcılıq metodu kimi yalnız XIX əsrdən müşahidə olunduğunu qeyd edirlər. Lakin bu fikirlə razılaşmaq mümkün deyildir. Xalqın bədii təfəkkürü həmişə real həyatla sıx əlaqədə olmuş, onu əks etdirmişdir. *"İntibah dövründə ədəbiyyatda maarifçiliyin təşəkkül tapdığı XVII-XVIII əsrlərdə və XIX əsrdə realizim bir bədii yaradıcılıq kimi daha sürətlə inkişaf etməyə başladı".* [13] Bəzi ədəbiyyat nəzəriyyəçiləri realizmi müəyyən tarixi dövrün bədii yaradıcılığına xas olan bir hadisə kimi qiymətləndirir və bütün tarixi dövrlərdə ədəbiyyatın inkişafını realizmin və antirealizmin mübarizəsi kimi başa düşürdülər. Ədəbiyyatda yaxşı, diqqətəlayiq nə varsa hamısı realizmə aid edilir, lakin bununla belə realizmin əsas mahiyyəti açılmır.

Ədəbiyyatımızda realizmin tarixini, əsasən, XVIII əsrlə, yəni M.P.Vaqifin yaradıcılığı ilə əlaqələndirmək ənənə şəklini almışdır.

Qədim dövrlər və orta əsrlər Azərbaycan ədəbiyyatını araşdıran görkəmli alimlər Həmid Araslı, Məmmədhüseyin Təhmasib, Məmmədcəfər Cəfərov, Feyzulla Qasımzadə, Mirzağa Quluzadə realizmin xalq həyatı ilə bağlılığını həmişə qeyd etmişlər.

Adları çəkilən alimlər Azərbaycan poeziyasının həyati köklərini, real varlıqla bağlı olan cəhətlərini daha diqqətlə izləməyə çalışmışlar. M.P.Vaqif poeziyasının realizmi xalqın həyatını, real gözəlləri təsvir və tərənnüm etməsi ilə səciyyələnir.

XVIII əsrdə cəmiyyətin təbəqələri arasında maddi və mənəvi fərqlərin olması, xalq üçün anlaşılmaz olan saray ədəbiyyatının mövcudluğu sadə insanların qəlbinə və ruhuna yaxın olan əsrlərin yaranmasının zərurətini meydana çıxarırdı.

Realizm M.P.Vaqif qoşmalarının təbiiliyində, xalqın gündəlik həyatının, arzularının əks olunmasında, lirik qəhrəmanın real psixoloji cizgilərlə təsvirində, poetik formanın xalqa yaxın olmasında ifadə olunurdu. M.P.Vaqifin qoşmaları bədii forması və ifadə vasitələri baxımından real poeziyadır. Bu qoşmalarda gözəllər o

---

[12] İbrahimov, M. Aşıq poeziyasında realizm. / M.İbrahimov. – Bakı: Elm, – 1966. – s. 7-8

[13] Вагиф, М.П. Избранные стихотворения / сост. А.Шариф. – Москва: Гослитиздат, – 1949. – с. 347-348

qədər real təsvir olunmuşdur ki, insan sanki bir anlığa “yay qaşlar altında”, “al yanaq üstündə məstanə gözləri”, “sürməli kirpikləri”, “oxa bənzəyən”, “badamı gözlü”, “şəhanə baxışlı”, “qara rütlü” Azərbaycan xanımını qarşısında görür. Realizm yaradıcılıq metodu mücərrəd xəyalların, möhtəşəm ideallların özünə də bir həyatilik, təbiilik verir. Realizmin estetik idealı daima həyatla, real insanlarla, real şəraitlə bağlıdır.

Orta əsr Azərbaycan ədəbiyyatının realizmi hələ hərtərəfli, xüsusi elmi-tədqiqat obyektinə çevrilməmişdir. Tədqiqatçıların bir hissəsi, ümumiyyətlə, qədim və orta əsr ədəbiyyatında realizm və ya romantizm axtarmağı mənasız sayır. Orta əsrlər yaxın Şərq və Azərbaycan ədəbiyyatında realizm və yaxud romantizmdən bir metod kimi danışmaq yersizdir. Bəzi tədqiqatçılar, ümumiyyətlə, realizmin mövcudluğuna heç bir sərhəd qoymur. Onların fikrincə, *“antik dövrdən müasir ədəbiyyata qədər” ədəbi prosesdə daima realizm metodu mövcud olmuşdur”*[14].

İnsan psixologiyasını konkret şəraitlə və ictima mühitlə əlaqələndirə bilən, tipik şəraitdə tipik obrazlar yarada bilən sənətkar realist adlandırıla bilər.

Akademik Bartoldun fikrincə, *“ərəb bəlağətinə və fars natiqliyinə türk həqiqətpərəstliyini qarşı qoyurdular”. Bu, türk dilində yaranmış əsərlərin daha sadə və daha həyati olması ilə əlaqədar idi*[15].

Görkəmli yazıçı akademik Mirzə İbrahimovun bu barədə fikirləri fərqlidir: *“İnkişaf nəzəriyyəsinə əsaslanaraq deməliyik ki, insan şüuru maddi aləmin əksi olduğu kimi, bədii təfəkkür də həmişə varlıqla, insanların həyat şəraiti ilə bağlı olmuşdur. Bədii təfəkkür qədim və orta əsrlər adamının varlıq haqqında mistik, mifoloji, yanlış təzahürlərdən qidalandığı kimi, sağlam, doğru, həqiqətə uyğun, realist hislərdən qidalanmışdır*[16].

---

[14]Дадашзаде, А. Певец жизни. Раздумья о Вагифе / А.Дадашзаде. – Баку: – 1968. – с.112-114

[15]Dadaşzadə, A. M.P.Vaqif və realizmin bəzi problemləri // - Bakı: Azərbaycan, – 1968. №7 – s. 213-214

[16] Kəngərli-Əliyeva, G. Bədii düşüncə: Tarixi gerçəklik və estetik ideal / G.Kəngərli-Əliyeva. – Bakı: Təhsil, – 2011. – s. 11-14

Romantizmin ruhunun hələ də qüvvətli olmasına baxmayaraq, XVIII əsr şeirində, xüsusilə M.P.Vaqif qoşmalarında əyaniliyə, realist təsvirlərə meyil çox qüvvətlənmişdir.

M.P.Vaqifin qoşmalarında təsvir edilən hadisə və şəxslər real idi, insanların hərəkət və davranışı, həyat tərzi və geyimləri real təsvir edilirdi, dünyəvi və nikbin hislər daha çox tərənnüm olunurdu. Xalqın məişəti və milli etnoqrafik dəyərlər səciyyəvi formada təsvir olunurdu, dil xalqın başa düşəcəyi və hər gün danışdığı dil idi.

Vaqif qoşmaları bəzən ibtidai realizm nümunəsi kimi təqdim olunur. Lakin dərin araşdırmalardan sonra fikrin səhv olduğu məlum olur.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli **"M.P.Vaqifin qoşmalarında həyatilik və nikbinlik"** adlanır.

M.P.Vaqif Azərbaycan ədəbiyyatında az-az yetişən nadir simalardan biridir. M.P.Vaqifin qoşmalarında ilk amillərindən biri həyata məhəbbət, dünyəvilik, nikbinlik ideyalarıdır. Həyatsevətlik və nikbinlik M.P.Vaqif poeziyasının canıdır.

Həyatilik, nikbinlik kimi ümumbəşəri problemlər M.P.Vaqif qoşmalarında aparıcı mövzuya çevrilərək öz yüksək bədii həllini tapmışdır. Şairə görə, insan həyata məna və məzmun verən varlıqdır. İnsan həyatı işıqlandırır, onsuz dünya soyuq və mənasız olardı. Buna görə də insan sevməli, həyatdan zövq almalıdır. Nikbinlik Vaqifi bir çox müasirlərindən fərqləndirən özəllikdir. M.P.Vaqifin lirik qəhrəmanı həyata, dünyaya bağlı insandır. O, həyatdan zövq almağa can atır və buna nail olur.

Bəzi alimlərin əsərlərində M.P.Vaqifin nikbinliyi, dünyəviliyi erotizm kimi qiymətləndirilir. M.P.Vaqifin nikbinliyi onun həyata baxışıdır, dünyagörüşüdür desək, səhv etmərik. Şairin qoşmalarındakı nikbinlik, onun xalq yaradıcılığı, aşıq şeiri ilə bilavasitə əlaqədar olmasından irəli gəlir.

Ömrünün sonunda yazdığı şeirlərdə M.P.Vaqif artıq əvvəlki kimi nikbin və şux deyildir. Əlbətdə, zindana salınan, təhqir və əziyyətlərlə üzləşən, sevdiyi qadından vəfa və etibar görməyən şairin necə əhvali-ruhiyyəsi ola bilərdi?! Salman Mümtaz yazırdı: *"Son dövrdə nəşə və sevincdən hər dəqiqə gözləri gülən əvvəlki şən və şux Vaqif əvəzinə, kədərdən qaşları çatılmış sima görürük. Vaqif*

*kədərlənir, lakin bədbin deyildir”*[17].

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **“M.P.Vaqif qoşmalarında sosioloji və kulturoloji amillərin ifadəsi”** adlanır.

Şairin qoşmalarında insani münasibətlər və sosial gerçəklik bir vəhdət təşkil edir, poetik obrazlar, estetik təfəkkür sosial mühitlə bağlıdır. Sosial mühit isə öz növbəsində bir sıra ünsürləri, şərtləri birləşdirən, onları təsvir edən amillərdən asılıdır. Burada həm sosial, həm də psixoloji motivlər əsas rol oynayır.

M.P.Vaqifin qoşmaları öz dövrünün məhsuludur. Lakin bütün mütərəqqi ideyalar kimi Vaqif qoşmalarının ideya-bədii dəyəri öz dövrünü qabaqlamışdır. M.P.Vaqif qoşmalarında Azərbaycan qadınlarının həyatından, yaşayış tərzindən söhbət açır. O, qadınları mədəni, gözəl, təmizkar, səliqəli görmək istəyir. Vaqifin qoşmalarında qadın əsarəti olan çadra əleyhinə də fikilər səslənir.

“Hayıf ki, yoxdur” qoşmasında vətənpərvər bir şairin təəssüf hissi ilə Kürqırağı əhalisinin kasıb həyatını təsvir etdiyini görürük. Şair gözəl mənzərəsi, əlverişli təbii sərvəti olan Kür qırağında bir gözəl obanın olmamasını, kəndlilərin fəqir, acınacaqlı vəziyyətdə yaşamasını ürək ağrısı ilə yazır.

Vaqif Kür qırağında yaşayan gözəllərin heç də şəhər xanımlarından gözəllikdə geri qalmadığını, lakin gözəl geyimdən, bər-bəzəkdən, saray ədalarından məhrum olduqlarını yazır. Əsrlərlə xarici hökmdarların hücumlarına, şahların, sultanların istilasına məruz qalmış, yerli feodalların çəkişmələri nəticəsində dilənçi yaşayışı görmüşlər.

**Nəticə**:

- Tarixi-ədəbi təhlildən fərqli olaraq tarixi poetika daha geniş əhatə dairəsinə malikdir. Burada ədəbi proses daha dərin ənənələrlə bağlı olur. Bu zaman sanki bədii yaddaş yaranır.
- Azərbaycan ədəbiyyatı tarixi poetik şüurun ümumi inkişaf prespektivlərini açır. Bunları nəzərə almadan elmi dəlillərə söykənən əsl tarixi poetika yaratmaq mümkün deyildir. Həyatın inikasının bədii formaları geniş tədqiqata cəlb olunmadıqca, bədii yaradıcılıq özü natamam qalır.

---

[17]Mümtaz, S. Molla Pənah Vaqif / S. Mümtaz, İ.Cahangirov. – Bakı: Azərnəşr, – 1933. S. 24-26

- Azərbaycan ədəbiyyatında qoşma janrının tədqiqat təcrübəsinə əsaslanaraq tarixi poetikanın predmetini həyatın obrazlı dərk edilməsinin təkamül vasitəsi və ya üsulu, idrakın ictimai-estetik funksionallaşması, bədii kəşflərin tarixi araşdırılması kimi səciyyələndirmək olar.

- Qoşma janrının tarixi poetikasını bədii texnologiyanın, dəyişən formaların tarixi kimi başa düşmək bu vacib problemə çox bəsit yanaşma olardı. Hətta hər hansı böyük şairin qoşma janrında yazılmış əsərlərinin poetik təkamülünü araşdırarkən belə, onları bədii dəyişkən formaların və ya bədii texnologiyaların tarixi kimi təqdim etmək düzgün mövqe deyildir.

- Azərbaycan şeirində qoşma janrının potikası bədii ifadə vasitələrinin tarixi təkamül dövrləri ilə, şifahi xalq ədəbiyyatı ilə əlaqədardır. Bu zaman poetik şüurun təkamülünün ilkin dövrlərinə, yazılı ədəbiyyata qədərki zamana, şifahi folklora xüsusi diqqət yetirmək məqsədə uyğundur. Azərbaycan şeirində qoşma janrını poetikası bədii ifadə vasitələrinin tarixi təkamül dövrləri ilə, şifahi xalq ədəbiyyatı ilə əlaqədardır.

- Poetik şüurun təkamülünün ilkin dövrlərində həyatın obrazlı dərk edilməsinin ilkin formaları və üsulları yarandı. Qoşma janrında yeni bədii ifadə vasitələrinin yaranmasında və təkamülündə ilk növbədə şifahi xalq şeirinin, saz şairlərinin təsiri xüsusi qeyd olunmalıdır.

- M.P.Vaqifin qoşmalarında ədəbi proses bir şəbəkə şəklində, bütün tarixi, psixoloji, etnopsixoloji amillər nəzərə alınmaqla ifadə olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan şairinin qoşma janrının tarixi poetikasının təkamül müstəvisində araşdırılması çox məqsədəuyğundur.

- M.P.Vaqifin yaradıcılığında qoşma janrının poetikası Azərbaycan poetik şüurunun özünəməxsus dərkini ifadə edirdi. Bu dövrdə poetik fikrin təkamülünə müxtəlif daxili və xarici amillər təsir edirdi. Çünki bu tarixi dövr ədəbi prosesdə düzgün əks olunmalı, onun xüsusiyyətləri real ifadə edilməli idi.

- Poetik kateqoriyalar daim inkişafdadır. Bu kateqoriyalar tarixi inkişaf şəraitində öz məna özəlliyini saxlayır, yeni münasibətlərə və əlaqələrə girir, fərqli sistemlərə daxil olurlar. Bu sistemlər dövrün və zamanın ədəbi şüuru ilə səciyyələnir.

- M.P.Vaqif qoşmalarının bədii üslubu ilk növbədə onların əşyəvi-

hissini və emosional əsasını təşkil edir. Qoşmalarda assosiativ əlaqələr predikativ və qeyri-predikativ əlaqələrə üstün gəlir. Məcazi məna əsas məna ilə üzvi vəhdətdə götürülür.

- M.P.Vaqifin qoşmalarında sözün mənası sanki şahələnir, yeni mənalar yaranır. Bu baxımdan elə düşünmək olar ki, iki dil mövcuddur: mövcud olan və mümkün olan. Bu iki dil arasındakı münasibət əsas və məcazi mənaların yaranmasına, sözün çox mənalılığına, anlam planının genişliyinə səbəb olur.

- M.P.Vaqifin qoşmalrında ritorikanın (bəlağətin) köməyi ilə şairin təsvir olunan mətnə münasibəti ifadə olunur, şeirin emosional strukturu müəyyənləşir. Bu qoşmalarda bədii ifadə vasitələri şairin ritorik şüurunun tərkib hissələridir.

- M.P.Vaqifin qoşmaları şairin poetik düşüncəsini təmsil edir. Hər bir misra bitkin bir poetik düşüncənin ifadəsidir, sözlər və obrazlar misra-misra düzənlənir. Qoşmaların poetikası həmin düzənin əsaslarını və məntiqi özəlliklərini əks etdirir. Burada bədii sözün, bədii deyimin, bədii mətnin arxasında bədii-estetik düşüncə və poetik təxəyyül dayanır.

- M.P.Vaqifin qoşmalarında yeni realist düşüncə ilə bərabər, poetik kateqoriya və qanunların, bədii təsvir vasitələrinin milli üslub zəminində yeniləşməsi davam etmişdir.

- M.P.Vaqifin qoşmaları klassik ədəbi prosesdə özünəməxsus yer tutur. Bu qoşmalar folklora və klassik şeirə söykənir, bu köklər əsasında formalaşıb inkişaf edir. Vaqifin qoşmalarının poetik təkamülündə aşıq sənəti, folklor ənənələri, klassik ədəbiyyat ehtiva olunmuşdur.

- Canlı nitqin bütün intonasiya çalarları Vaqif qoşmalarında reallaşır. Şairin qoşmalarında ritm elə bir keyfiyyətdir ki, onun sayəsində mətni təşkil edən sözlər ahəngdar nizama nail olur.

- M.P.Vaqifin qoşmalarında mətnin ritmik quruluşu intonasiya gözəlliyinə yol açır, daxili dinamikaya təkan verir, estetik səslənmə keyfiyyəti yaradır.

- Qoşmaları fərqləndirən nizam, ahəng yaradıcılığı, dərin mənanın yığcam ifadəsi, şairin dilin estetikasını duyma bacarığı əsas faktorlardır.

- M.P.Vaqifin qoşmalarında əsərin əsas qayəsi qafiyəyə qurban verilmir. Əsas fikrin ifadəsi bu qoşmalarda önəmli yer tutur. Şairin böyüklüyü ondadır ki, onun qoşmalrında qafiyə məhdudluğu yoxdur.

- M.P.Vaqifin qoşmalarında ahəngi yaradan əsas vasitələrdən biri də

hecanın yaratdığı ahəngdir. Şairin qoşma poetikasında heca ahəngini yaradan səbəb dilimizin özünün ahəngidir. Vaqif xüsusi seçim ilə bu ahəngi öz qoşmalarında canlandırır.

- M.P.Vaqifin qoşmalarının ritmik strukturunun əsası budur ki, hər bir misra böyük və kiçik ritmin formalaşdırıcısıdır. Bu qoşmalarda sürətlənmənin, yavaşımanın, gərginliyin, zəifləmənin, uzunluğun, qısalığın bərabər ölçüdə işlənməsi olan ritm emosinal vəziyyətlərə uyğun gəlir.

- M.P.Vaqifin qoşmalarında məcazlar sistemi təfəkkürün inkişafını ifadə edir. Şairin işlətdiyi məcazlarda real həyatın təfəkkürdə saldığı naxışları görürük. Bu məcazlarda ətraf mühit şairin şüurunun prizmasından əks olunur.

- Vaqifin qoşmalarında işlənən poetik fiqurlarda dilin polisemik keyfiyyətləri öz əksini tapır. Burada sanki əşyəvi məna yox olur, onu məcaz əvəz edir. Konkret məna bir növ məcazın kölgəsinə çevrilir.

- M.P.Vaqifin qoşmalarındakı təzad həyatın özündən qidalanır. Bu təzadlar şairin düşüncə tərzində, mühakimələrində, həyata, insan və gözəlliyə münasibətdə ifadə olunur.

- XVIII əsrdə orta əsrlər poeziyasının, onun əsrlər boyu dəyişməz sayılan qayda-qanunlarının, el ədəbiyyatının güclü təsviri ilə dəyişməsi dövrün ədəbi prosesinə çevrilir. Xalqın başa düşdüyü, onun estetik görüşlərinə və fəlsəfi təfəkkür tərzinə çox yaxın olan bu ədəbiyyat həyatı daha dolğun əks etdirirdi.

-M.P.Vaqifin, keçid dövrünün bu böyük sənətkarının yaradıcılığının təhlili XVIII əsrdə Azərbaycan ədəbiyyatında gedən proseslərin mürəkkəbliyi üzə üzə çıxarmağa imkan verir.

- M.P.Vaqif qoşmalarında mətnin ritmik quruluşu intonasiya gözəlliyinə yol açır, daxili dinamikaya təkan verir, estetik səslənmə keyfiyyəti yaradır. Ritmik faktorlar burada əhəmiyyətli rol oynayır. Qoşmaları fərqləndirən nizam, ahəng yaradıcılığı, dərin mənanın yığcam ifadəsi, şairin dilin estetikasını duyma bacarığı əsas faktorlardır.

- M.P.Vaqifin qoşmalarının şeir dilinə melodiya da əlavə olunur. Bu qoşmalar musiqilidir, ritmik cəhətdən zəngindir. Burada ritm və intonasiya, ahəngdarlıq və musiqi zahiri bər-bəzək olmayıb əsl forma gözəlliyidir.

-Məhz öz tarixi nikbinliyi sayəsində Vaqif klassik Şərq

romantizminin poetikasını və janr sistemini daha dərindən sarsıda bildi və bununla Azərbaycan ədəbiyyatının gələcək istiqamətini müəyyənləşdirdi. M.P.Vaqifin qoşmaları folklor və klassik Şərq romantizmi üslublarının qarşılaşdırılması, bir-birinə nüfuz etməsi, qovuşması nəticəsində formalaşmışdır.

-XVII-XVIII əsrlərdə yaranan ədəbiyyat aşıq poeziyası və xalq yaradıcılığı ilə bərabər, klassik şeir nümunələrindən də bəhrələnmiş, poeziyanın iki qolunu, iki üslubunu birləşdirmişdir. Ədəbiyyatımızın bu keçid mərhələsində folklor janrlarına müraciət realizmə meyli qüvvətləndirmişdi.

- XVII-XVIII əsrlər ədəbiyyatımızın realist yaradıcılıq metoduna keçid dövrü idi. Bu dövrdə qəzəl klassik poeziyanın aparıcı janrı sayılsada, ona qarşı qoyulan janr qoşma idi. Qoşma fərdi yaradıcılıq üçün daha geniş meydan açır, daha xəlqi və demokratik səciyyə daşıyır, ədəbi dili xalq dilinə yaxınlaşdırır, sosial mövzuları və problemləri daha səlist ifadə edə bilirdi.-

- M.P.Vaqifin qoşmaları incə lirizmi ilə fərqlənir. Bu qoşmalarda yüksək sənətkarlıqla tərənnüm olunan gözəllərin obrazlarından əlavə lirik qəhrəmanın mənəvi-psixoliji aləminin təsviri ilə də qarşılaşırıq. Şair xarici aləmdən aldığı hisləri lirik qəhrəmanın dili ilə verir.

- M.P.Vaqif yeni boyalar tapır. Dəfələrlə deyilmiş sözlərə yeni nəfəs, yeni can və ruh verir. Şairin qoşmaları bu özəllikləri ilə fərqlənir.

- Vaqifəqədərki poeziyada lirik qəhrəman öz eşqi yolunda hər cür fədakarlıq göstərməyə, çətinliklərə əzmlə dözməyə hazırdı. Eşq onun sağalmaz dərdinin dərmanıdır. Vaqif poeziyasının lirik qəhrəmanı da sevgisi yolunda hətta din-imanından, etiqadından belə dönməyə hazırdır. Vaqifin lirik qəhrəmanı Vaqifəqədərki klassik poeziyanın qəhrəmanı kimi mücərrədlikdən, xəyalilikdən uzaq real insandır. Bütün insanlar kimi, o da müəyyən qədər səbirsizdir, inciyə bilir, şikayətlənə bilir.

- Vaqifin lirik qəhrəmanı konkret məhəbbəti, arzuları və xəyalları ilə seçilən həyati obrazdır. Şairin qəhrəmanlarında məhəbbət ilahəsi göylərdən yerə enir, eşq fəlsəfəsi daha dünyəvi xarakter daşıyır. Vaqif dünyəvi məhəbbəti ilahi eşqdən, kosmopolitizimdən, platoniklikdən uzaqlaşdırır, həyatda gördüyü real gözəlliyi, məhəbbəti vəsf edir.

- Gündəlik həyatla bağlılıq, ətraf mühitlə canlı əlaqə, yaradıcılığının

doğma ana dili zəminində inkişaf etməsi, xalq ifadələri və təşbehlərdən qidalanması M.P.Vaqifin qoşmalarında realizmin, realist bədii təsvir vasitələrinin güclü şəkildə özünü göstərməsinə səbəb olmuşdur.

- Realizm M.P.Vaqif qoşmalarının təbiiliyində, xalqın gündəlik həyatının, arzularının əks olunmasında, lirik qəhrəmanların və gözəl qadın obrazlarının real cizgilərlə təsvirində, poetik formanın xalqa yaxın olmasında ifadə olunurdu.
- Azərbaycan klassik şeirində realizm ünsürləri olsa da, bu poeziya əsasən romantik poeziyadır. Lakin XVIII əsr şeirində, xüsusilə, Molla Pənah Vaqif qoşmalarında artıq realizm üstünlük təşkil edir. Buna baxmayaraq, XVIII əsrdə realizmin bir ədəbi cərayan, bir yaradıcılıq metodu kimi formalaşdığını demək, əlbəttə, düzgün olmazdı. M.P.Vaqifin qoşmalarında realist təsvirlərə meyl çox qüvvətlidir.
- M.P.Vaqifin qoşmalarında təsvir edilən hadisə və şəxslər real idi, insanların hərəkət və davranışı, həyat tərzi və geyimləri real təsvir edilirdi, məkan konkretliliyi var idi, dünyəvi və nikbin hislər daha çox tərənnüm olunurdu, xalqın məişəti və milli etnoqrafik dəyərləri səciyyəvi formada təsvir olunurdu, dil xalqın başa düşəcəyi və hər gün danışdığı dil idi.
- M.P.Vaqifin məhəbbət realizmi bir qədər məhduddur, qeyri-fəaldır. Onun qoşmalarında kamil realizmə məxsus xarakterlərin toqquşması, psixoloji səhnələr yoxdur. Feodal Azərbaycanında yaşamış bir şairin poeziyasında tənqidi realizm axtarmaq, yaxud onun yoxluğunu qüsur saymaq, məsələyə tamamilə qeyri-elmi yanaşmaq olardı.
- M.P.Vaqifin qoşmaları real həyata münasibəti və milli xüsusiyyətləri ilə seçilirdi. Bu qoşmalar şeirdə yeni istiqamət yaratmışdı; orta əsrlərin kosmopolitizmi və idealizmi öz milli xüsusiyyətləri ilə seçilən realizmlə əvəz olunurdu.
- Həyatilik, nikbinlik kimi ümümbəşəri problemlər Vaqif qoşmalarında aparıcı mövzuya çevrilərək öz yüksək bədii həllini tapmışdı. Bu qoşmaların əxlaqi tövsiyyələrinin mərkəzində insan və mənəviyyat, insan və gözəllik, insan və məhəbbət problemləri dayanır.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. M.P.Vaqif yaradıcılığında qoşma // – Bakı: Filologiya məsələləri, – 2015. №6, – s. 294-301

2. M.P.Vaqif qoşmalarında real məhəbbət mövzusu / – Bakı: Dil və ədəbiyyat, – 2015. 3(95), – s. 260-263
3. Из истории исследования творчества Молла Панаха Вагифа в жанре «Гошма» в азербайджанской литературе // Балтийский гуманитарный журнал, – 2016. т. 5, 2(15), – с.39-42
4. Azərbaycan şeirində qoşma janrının mühüm poetik vasitələri və onların bədii-estetik dəyəri // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2017. №3, – s. 90-95
5. Основные поэтические средства в жанре гошма в азербайджанской поэзии / – Стерлитамак: Междисциплинарность науки как фактор инновационного развития, – 2017, – с. 125-127
6. XVIII əsr Azərbaycan ədəbi prosesində təkamülün perspektivləri // "M.P.Vaqif və Müasirlik" mövzusunda Respublika elmi-praktik konfransı. – Bakı: – 2017, – s.54-58
7. M.P.Vaqif qoşmalarında sosioloji və kulturoloji amillərin ifadəsi // – Bakı: Dil və ədəbiyyat, – 2017. 4(104), – s. 388-392
8. M.P.Vaqifin qoşmalarında məhəbbət və gözəlliyin ifadəsi. Lirik qəhrəman // – Bakı: Filologiya məsələləri, – 2018. № 15, – s. 265-270

Dissertasiyanın müdafiəsi 20 iyun 2022-ci il tarixində saat 14[00] Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1104, S.Rüstəm, 33.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 May 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağız formatı:
Həcm: 49 973
Tiraj: 80